UOT- 811.512.162
Səhifə: 137-145
https://doi.org/10.59849/2663-8967.2026.2.137

Ayşən İsmayıllı
AMEA Nəsimi adına Dilçilik İnstitutu
aysheaxmedova4@gmail.com

QARABAĞ BÖLGƏSİNƏ AİD OLAN GEOMORFOLOJİ TERMİNLƏRİN MİKROTOPONİMLƏRİN YARANMASI PROSESİNDƏ ROLU: TƏBİİ VƏ SÜNİ YOLLA YARANAN MİKROTOPONİMLƏR

XÜLASƏ

Mikrotoponimlər xalqın keçmiş yaddaşını, dil xüsusiyyətlərini, yaşayış məskənlərini özündə əks etdirən dəyərli mənbədir. Qarabağ bölgəsində qeydə alınan mikro adlar bölgənin mikrotoponimlər sistemini yaradır və mikrotoponimik layda dəyişikliyə səbəb olur. Məqalədə Qarabağ bölgəsinin mikrotoponimlərinin tərkib hissəsi kimi çıxış edən geomorfoloji terminlər araşdırılır. Geomorfoloji terminlər toponim yaradıcılığında aktiv iştirak edir. Bu terminlər isə geomorfoloji quruluşla, yəni relyeflə (yurd, dam, binə, dərə, təpə və s.); yerləşmə istiqaməti (aşağı, yuxarı, qıraq, çöl, yaylaq, qışlaq və s); hidronimik terminlər (bulaq, nohur, çay və s) ilə bağlı ola bilir. Mikrotoponimlər antroponimlər, etnonimlər, fitonimlər, zoonimlər, sənət, peşə, məşğuliyyət bildirən sözlər, teonimlər, patronimlər, eklezionimlər, oronimlərin müxtəlif geomorfoloji terminlərlə birləşməsinin nəticəsində yaranır. Bu o deməkdir ki, biri digərinin əmələ gəlməsində fəal iştirak edir. Yəni mikrotoponimlərin yaranmasında geomorfoloji terminlər xüsusi əhəmiyyətə malik olur. Ancaq, təbii ki, onlar arasında fərqli cəhətlər də vardır. Mikrotoponimlər ərazinin adını bildirdiyi halda, terminlər elmi anlayışları ifadə edir. Mikrotoponimik sistemdə xeyli miqdarda terminlər qeydə alınmışdır ki, onlar daha çox təbii mühitlə bağlı olub, insanların müxtəlif coğrafi obyektlərə ad verməsi nəticəsində yaranmışdır.

Açar sözlər: *Qarabağ, bölgə, geomorfoloji, termin, toponim, mikrotoponim.*

Giriş: Qədim dövrlərdən insanlar yer adlarını adlandırmışlar. Bu zaman isə müxtəlif terminlərdən istifadə etmişlər. Terminlər elə bir anlayışlar sistemidir ki, hər hansı elm və texnika sahəsində istifadə olunan adların cəmidir. Terminin özü də sözdür. Toponimik vahidlərlə terminlər arasında oxşar və fərqli cəhətlər özünü göstərir. S.Sadıqova yazır ki, coğrafi toponimlər işlənmə dairəsinə görə də coğrafi terminlərdən fərqlənir. Əgər coğrafi toponimlər konkret bir dilin coğrafi obyektlərinin adlarını bildirirsə, coğrafi terminlər təkcə konkret bir dilin lüğət tərkibində deyil, hətta beynəlxalq miqyasda terminologiyanın müəyyən sahəsində vahid şəkildə işlənə bilir" [12, s.47]. Mikrotoponimləri tədqiq edərkən ərazinin geoloji inkişaf dövrü, geomorfoloji quruluşu, landşaft xüsusiyyətləri, bölgədə tarixən və müasir zamanda məskunlaşan əhalinin əkinçilik, maldarlıq məşğuliyyəti və s. mühüm rol oynayır. Ona görə də mikrotoponimlər araşdırılan zaman ərazinin geoloji quruluşu, iqlim şəraiti, flora və faunası nəzərə alınmalıdır. "Geomorfologiya dünyanın yaranması, daxili və xarici qüvvələrin fəaliyyətləri nəticəsində yaranan yer üzü formalarının öyrənən elmdir" [6, s.27].

Relyef formasına əsasən yaranan mikrotoponimlər obyektləri uzunluğuna, eninə, dar, gen, yastı və s. olmasına görə əks etdirir. Həmçinin, "Geoloji birləşmələrin struktur xüsusiyyətləri və rəngləri, relyef formaları, eyni zamanda, yamacı, tərəfi və hündürlüyü üfüqi və ya şaquli sərhədlərini müəyyən edən bir çox yaşayış məntəqələri də identifikator və addır" [3, s.458].

Qarabağ bölgəsində əhalinin ən qədim məşğuliyyəti əkinçilik və maldarlıqdır. Bu da iqtisadi və sosial həyatla bağlıdır. Bu terminlər ümumi şəkildə heyvandarlıq terminləri adı altında

birləşir. Məsələn: örüş, otlaq, yaylaq, qışlaq, axur, pəyə, yurd, pəyə (ağıl, tövlə), dam, dəyirman, bağ, qoruq və s. terminlər mikrotoponimik leksikaya aiddir.

"Toponimlərin yaranmasında xeyli miqdarda müxtəlif terminlər iştirak edir. Bu terminlər təbii mühitin ayrı-ayrı xüsusiyyətlərin əks etdirir. Onlara oroqrafiya, hidroqrafiya, torpaq, bitki örtüyü, heyvanlar aləmi və s. aiddir" [11, s.68].

Fiziki coğrafiya ünsürləri yer adlarını müəyyən edir: 1.Geomorfoloji. 2. Hidroqrafiya. 3. Geoloji-litoloji. 4. Bitki. 5. Fauna. 6. Klimatoloji. 7. Torpaq" [1, s.1078].

Coğrafi termini daha çox toponimistlər işlədir. V.Əliyev coğrafi terminlər haqqında qeyd edir: "Əslində, "coğrafi termin" konkret anlayışdır. Coğrafi terminlər toponim yaradıcılığında fəal rol oynayan amildir" [5, s.23]. Mikrotoponimik vahidlər müxtəlif terminlərlə işlənə bilir. Qarabağ bölgəsi əsasən dağlıq, qismən düzənlik olduğu üçün ərazinin relyef quruluşu müxtəlifdir. Geomorfoloji terminlərin adlandırılmasına əsasən təsnifi toponimikada mühüm rol oynayır. Coğrafi obyektlər müxtəlif şəkildə ad alır. Bu isə insanların təbiəti mənimsəməsi prosesindən asılı olaraq dəyişir. Nomenklatur termin kimi işlənən coğrafi termin deyərkən xalq coğrafi terminləri anlaşılır. Bunlar isə daha çox apelyativlər olur. Sonra isə toponimik vahidə keçir. Mikrotoponimlərin tərkibində müsbət və mənfi relyef formaları ilə bağlı olan terminlər işlənərək yer-yurd adlarını əmələ gətirir.

Dünyada təbiət və təssərrüfca bir olan ərazi mövcud deyildir. Ona görə də coğrafiya terminləri bir-birindən fərqlənir. R.Yüzbaşov yazır: "Coğrafiya elmi bu və ya digər landşaftı səciyyələndirdikdə yerli xalqın dilində olan terminlərdən istifadə edir ki, belə terminlərə xalq və ya yerli coğrafiya terminləri deyilir" [14, s.9]. Landşaft quruluşunda baş verən bütün prosesləri geomorfoloji terminlər əks etdirir. Bu terminlər yer səthinin relyef quruluşu, torpaq, bitki örtüyü, heyvanlar aləmi ilə sıx şəkildə bağlıdır.

A.Bayramovun fikrincə, "Ərazilərin relyef müxtəlifliyi çoxlu miqdarda relyef adının-makrooronim və mikrooronimin yaranmasına səbəb olmuşdur. Yəni ərazinin relyefi nə qədər müxtəlifdirsə, bir o qədər də müxtəlif coğrafi obyekt adları yaranmışdır. Düzənlik ərazidə relyef adları azlıq təşkil edir". [2, s.255]. Ərazidə mövcud olan yer adları xüsusi mülkiyyəti bildirir.

M.Çobanov toponimik terminləri iki qrupa bölür: "1.Elmi (beynəlxalq) terminlər; 2. Yerli coğrafi terminlər və ya deteminativlər" [4, s.20]. Bu fikri Qarabağ bölgəsində qeydə alınan mikrotoponimlərin tərkibində olan geomorfoloji terminlər təsdiq edir.

Relyefin öyrənilməsi zamanı 3 yanaşma əsas götürülür:

1.Morfoloji cəhətdən yanaşma (Relyefin quruluşu, formaların böyüklüyü və kiçikliyi)

2.Morfometrik cəhətdən yanaşma (Relyef əmələ gətirən amillərin aşkar olunması)

3.Tarixi-geneoloji cəhətdən yanaşma (Coğrafi mühitdə baş verən inkişaf qanunauyğunluqlarının və tarixinin öyrənilməsi)

Fikrimizi ümumiləşdirsək geomorfoloji terminləri əsasında əmələ gələn mikrotoponimləri 2 qrupa ayırmaq olar:

1. Morfoloji cəhətdən ad alan mikrotoponimlər.

2. Morfometrik cəhətdən ad alan mikrotoponimlər.

Morfoloji cəhətdən ad alan mikrotoponimlərdə ərazinin relyef quruluşu, əsasən iqlim şəraitində baş verən dəyişikliklər, bitki landşaftı, heyvanat aləmi nəzərə alınır. Morfometrik cəhətdən ad alan mikrotoponimlərdə relyef quruluşunun (müsbət və mənfi relyef formaları) xüsusiyyətləri, hündürlüyü və alçaqlığı əsas götürülür. Geomorfoloji terminlər toponimik vahidlərin əmələ gəlməsində əsas rola malikdir. Bu onimlərin yaranmasında sözyaratma üsullarından istifadə olunur. Toponimiyada geomorfoloji terminlər onlar təyinedici rola malikdir. Bu o deməkdir ki, mikrotoponimlərə təyinedici termin əlavə olunur. Qarabağ bölgəsi geomorfoloji quruluşuna və iqlim şəraitinə görə özünəməxsus cəhətə malikdir. Geomorfoloji terminlər mikrotoponimlərin yaranması prosesində iştirak edir. Bu onimlərin hər biri mikrotoponimik vahidə çevrilir. Yəni xüsusiləşərək apelyativ leksikaya keçir. Geomorfoloji termin dedikdə, mikro coğrafi adların yaranması prosesində fəal rola malik olan terminlər nəzərdə tutulur.

İ.Hüseynov Ordubad və Culfa rayonu ərazisində qeydə alınan coğrafi teminlərdən bəhs edir: "Toponimlərin və mikrotoponimlərin tərkibində ard//art, daş, al//alık, qoşun, cigi, car, top,

yazı, pilə//bilə, bat, keyqun, qulaq, cırnıx, mar, soyuk, yar, nova, sırt, cuğa, zır//zor//car, tey, vaz//baz, qoltuq, qır, bud, xor, arxac, taxta kimi qədim türk coğrafi terminləri ilə yanaşı düz, yoxuş, dik, təpə, boğaz, gədik, dərə, dağ, bulaq, yer, mərs kimi dilimiz üçün anlaşıqlı olan terminlər də iştirak etmişdir" [8, s.32-33]. Qarabağ bölgəsində də bəzi geomorfoloji terminlər qeydə alınmışdır ki, müasir dövrdə dialekt və şivələrimizdə işlənir, müəyyən insanlar tərəfindən anlaşıqlıdır.

Arxaik terminlərlə bağlı olaraq V.Bəndəliyev öz fikrini belə əsaslandırır: "Müasir dildən uzaqlaşaraq köhnəlmiş hər bir arxaikləşmiş hər bir mikrotoponim (baba və nənələrin) danışıq dilində yaşamaqda olmuşdur. Təəssüflər olsun ki, hazırda yalnız belə coğrafi adları mikrotoponimlərdə tapmaq olur. Məsələn: dibək, əsrik, alaşa, tapan, oymaq, keş, ovruq, arqu, çərçi, qızılca, sırt, irmak, (yırmaq), utuq, yazı, dəyə və b. paleotoponimlərdə saxlanması aydınlaşmış olur" [3, s.215]. Bu adlar areallığı müəyyən etməyə əsas verir və dil mənsubiyyətini əks etdirir.

Tədqiqata cəlb olunan Qarabağ bölgəsində də arxaik hesab olunan terminlər qeydə alınmışdır. Toponimiyada geomorfoloji terminlər müxtəlif landşaft quruluşunu əks etdirir. Geomorfoloji relyef formaları həm açıq, həm də qapalı ola bilər. Açıq relyef formalarına çay, yarğan, dərə və s, qapalı relyef formalarına təpə, çuxur, çala, çökək və s. aiddir. Yer qabığına endogen və ekzogen geoloji proseslər təsir edərək relyef formalarını əmələ gətirə bilir. Mikrorelyef formaları isə daha çox endogen (daxili) və ekzogen (xarici) proseslərin nəticəsi kimi özünü göstərir.

Relyef bildirən sözlərlə ifadə olunan mikrotoponimlərlə bağlı olaraq F.Xalıqov yazır: "Ərazinin fiziki xüsusiyyətləri onun adlandırma prosesində böyük rol oynayır. Regionların coğrafi yerləşməsinin xüsusiyyətləri müəyyən bir bölgədə coğrafi obyektlərin nominasiyası üçün mənbələrdən biridir. [7, s.56]. Bu kateqoriyaya daxil olan mikrootponimlər çökək, çuxur, çöküntü, dikdir, yamac, təpə, yal sözləri ilə ifadə olunaraq məhəllənin yerləşdiyi ərazinin xüsusiyyətlərini tamamlayır Qarabağ bölgəsində relyef quruluşunu əks etdirən mikrotoponimlər çoxdur. Bu isə daha çox ərazinin dağətəyi olması ilə bağlıdır.

R.Həbiblinin fikrincə, "Nominasiya prosesində təbii və süni obyektlərin adlandırılmasının ümumi prinsipləri, coğrafi realilərin əlamətləri, adlar üçün "tikinti" materialı kimi istifadə olunan ayrı-ayrı leksemlərin məhsuldarlığı, işlənmə tezliyi diqqət mərkəzində durur, adların yaradılması üçün leksikanın seçilməsi mühüm rol oynayır" [6, s.122].

N.Məmmədov yazır: "Coğrafi obyektlər iki qrupa bölünür: təbii və süni. Təbii coğrafi obyektlər yer kürəsində baş verən endogen (daxili) və ekzogen (xarici) hadisələr nəticəsində yaranır. Təbii coğrafi obyektlər çox nəhəng, böyük (makro), orta mez və kiçik (mikro) ola bilər". [10, s.10]. Biz isə mikrotoponimləri 2 qrupa ayıra bilərik:

1.Təbii şəkildə yaranan mikrotoponimlər (fizionim mikrotoponimlər).

2.Süni şəkildə yaranan mikrotoponimlər (antropogen mikrotoponimlər).

Təbii yolla yaranan mikrotoponimlərdə antropogen (insanın təsiri) nəticəsində meydana gələn amillər özünü göstərmir. Süni yolla yaranan mikrotoponimlərdə antropogen amillər öz əksini tapır. Bu yolla yaranan mikrotoponimlər müxtəlif şəkildə meydana gələ bilər:

1.İnsanların təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması: Belə onimlərin tərkibində zəmi, pəyə, bağ, bostan, arx, bulaq, kəhriz, göl kimi mikrotoponimik terminlərdən istifadə olunur.

2.Dini inanc və etiqadlarla bağlı olaraq: qəbir, qəbiristan, kurqan.

3.Gündəlik həyat tərzini asanlaşdırmaq məqsədilə: məhəllə, keçid, yol, yurd. Təbii şəkildə yaranan mikrotoponimlərə (fizionimlər) aiddir: qaya, təpə, çökək, dərə, düz, qobu, çöl, arx, yer, gədik, taxta, zəmi, yamac, yal, zirvə, köbər, küdri, tirə, tap, aşırım, dəhnə, keçid, daş, yurd, yoxuş, ağız, döş, qışlaq, bazı, oyuq, yarğan, tala, yüksəklik, arxac və s.

Süni şəkildə yaranan mikrotoponimlərə (antropogen) qeyd etmək olar: ocaq, pir, türbə, ziyarətgah, məscid, bulaq, kəhriz, göl, mağara, pəyə, qəbir, kaha, qəbiristan, bağ, məhəllə, kurqan, yol, çuxur, bostan, cığır, qala, qoruq, kalafa, yataq, quyu, kövşən, sahə, ərazi, körpü və s.

Qaya coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Qarabağ ərazisində qaya coğrafi termini ilə formalaşan mikrotoponimlərə bunları aid etmək olar: Ağqaya

(Ağdam rayonu); Şapartı qayaları, Kəmər qaya (Xocavənd rayonu); Keçəlli qaya (Xocalı rayonu); Sarıqaya (Şuşa rayonu); Öküzuçan qaya (Xocalı rayonu); Xırman qaya (Füzuli rayonu); Qırmızı qaya, Ala qaya (Tərtər rayonu) və s.

Təpə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Govurtəpə (Ağcabədi rayonu); Qırmızı təpə, Qızıl təpə (Tərtər rayonu); Alıbəy təpəsi (Ağdam rayonu); Üçmıx təpəsi (Şuşa rayonu); Uzun təpə, Yumurta təpə (Xocalı rayonu); Çullu təpə, Şomulu təpə (Füzuli rayonu); Nərgiztəpə (Xocavənd rayonu) və s.

Çökək coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Çökək əslində geniş anlayış ifadə edir. Yer səthində hər tərəfi qapalı olub, tektonik mənşəlidir. Məsələn: Söyüdlü çökəklik (Xocavənd rayonu); Sulu çökək, Tağı çökəyi (Ağdam rayonu); Həzi çökəyi (Füzuli rayonu); Pir çökəyi (Xocalı rayonu) və s.

Dərə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Eşşəkkeçməz dərəsi (Ağcabədi rayonu); Musanın başı kəsilən dərə (Ağdam rayonu); Sərhəd dərəsi (Şuşa rayon); Zoğal dərəsi (Xocalı rayonu); Şalvar dərə (Füzuli rayonu); Suqovuşan dərəsi (Xocavənd rayonu) və s.

Düz və qobu coğrafi termini əsasında mikrotoponimlər (mikooronimlər). Hacıbaba qobusu (Ağcabədi rayonu); Yovşanlı düz (Ağdam rayonu); Ağvandüzü, (Şuşa rayonu); Mərözəli düz (Xocalı rayonu); Haramı düzü, Həştəfər düzü (Füzuli rayonu); Manas düzü (Xocavənd rayonu); Söyüdlü qobu, Yarğan qobusu (Ağdam rayonu); Bozqobu (Füzuli rayonu); Ağ qobu (Xocavənd rayonu); Bürkülü qobu, (Xocalı rayonu) və s.

Çöl coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Bu sözün iştirakı ilə yaranan adlardan Ceyrançöl (Ağdam rayonu); Faruq çölü (Xocalı rayonu); Qarğalı çöl (Füzuli rayonu) və s. qeyd edə bilərik.

Hidronimlərlə (mikrohidronimlərlə) ifadə olunan mikrotoponimlər: Belə mikrotoponimlərin tərkibində su obyektlərinin adları işlənir və müsbət relyef formasıdır. Məsələn: çay, arx, bulaq, nohur, kanal, göl, kəhriz və s.

Arx coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikrohidronimlər). Məsələn: Dəyirman arxı (Şuşa rayonu); Öküzçü arxı, (Ağcabədi rayonu); Kötəl arx (Ağdam rayonu); Şükürbəyli arxı (Füzuli rayonu); Şoruca arxı, Zavadıq arxı (Xocavənd rayonu); Yaylaq arxı, Zoğallığın arxı (Xocalı rayonu) və s.

Bulaq coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikrohidronimlər). Yer altında olan suların təbii şəkildə yer üzərinə çıxması nəticəsində yaranır. Məsələn: Şırşır bulaq, Yağlı bulaq (Tərtər rayonu); Zəngli bulaq, Ziyil bulaq (Ağdam rayonu); Ayı bulağı (Şuşa rayonu); Züy bulaq (Xocalı rayonu); Şorca bulaq (Füzuli rayonu); Ziyarət bulağı (Xocavənd rayonu) və s.

Kəhriz coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər (mikrohidronimlər). Yeraltı su yoludur. Daha çox antropogen təsirlər nəticəsində yaradılır. Məsələn: Hacıkərim kəhrizi, Çökək kəhrizi və s. (Xocavənd rayonu); Kazım kəhrizi (Ağcabədi rayonu); Yuxarı kəhriz (Ağdam rayonu); Şahbudaq kəhrizi, Şıxlı kəhrizi (Füzuli rayonu); Gur kəhriz (Xocalı rayonu) və s.

Göl coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikrohidronimlər): Çallı göl, Seyid gölü (Xocavənd rayonu); Gilan gölü və s. (Füzuli rayonu); Üfunətli göl (Ağdam rayonu); Cəmillər gölü, Fındıqlı göl (Şuşa rayonu); Sarı göl (Xocalı rayonu); Gecəgözlü gölü, Gilan gölü (Füzuli rayonu) və s.

Yer coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikrooronimlər). Məsələn: Əppəkli yer, Pötnək yeri (Ağcabədi rayonu); Zülü yeri (Ağdam rayonu); Arpa yeri (Şuşa rayonu); Şahbazın yurd yeri, Zərdi yeri (Xocalı rayonu); Çoban yeri, Şəkər xanımın bağ yeri (Füzuli rayonu); Şəfi yeri, Vərəndə yeri (Xocavənd rayonu) və s.

Mağara coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Azıx mağarası, Tağlar mağarası və s. (Xocavənd rayonu); Xəznədar mağarası, Şuşa mağarası (Şuşa rayonu) və s.

Gədik coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Tuğ gədiyi, Cinli gədik və s. (Ağdam rayonu); Arpagədik, Xırmancıq gədiyi, Qanlı gədik və s.

(Xocavənd rayonu); Yelli gədik (Xocalı rayonu); Qəbirli gədik (Şuşa rayonu); Qanlı gədik, Yelligədik (Füzuli rayonu) və s.

Taxta coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Qatıqlı taxta (Ağdam rayonu); Alıbəy taxtası (Şuşa rayonu) və s.

Zəmi coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Dərəzəmi (Ağdam rayonu); Qarazəmi örüşü, Uzun zəmi və s. (Xocavənd rayonu); Düz zəmi, Ceyran zəmi (Füzuli rayonu); Kətik zəmisi, Maral zəmisi (Xocalı rayonu) və s.

Pəyə sözü əsasında əmələ gələn mikrotoponimlər. Məsələn: Yanıq pəyə, Şükürün pəyəsi, İsmayılın pəyəsi və s. (Ağdam rayonu); Köhnə pəyələr (Xocalı rayonu); Yuxarı pəyə (Füzuli rayonu) və s.

Yamac coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Yeddixırman yamacı, Keçəl yamac (Ağdam rayonu); Qobu yamacı (Xocavənd rayonu); Buğadaş yamacı, Çadır yamacı (Şuşa rayonu); Qobu yamacı (Füzuli rayonu) və s.

Yal coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: İsmayıl əkən yal, Almalı yal (Ağdam rayonu); Qonur yal, Dəmirli yal (Tərtər rayonu); Qazaxlılar yalı, Qırxbuğumlu yal (Şuşa rayonu); Üçtığ yalı, Yuxarı yal (Xocalı rayonu); Cuvarlı yalı, Şükürbəyli yalı (Füzuli rayonu); Quru yal, Mənsur yalı (Xocavənd rayonu) və s.

Zirvə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Göyrüşlü zirvəsi, Sığnaq zirvəsi (Ağdam rayonu); Balaoyaq zirvəsi (Xocalı rayonu) və s.

Köbər coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Güllü köbər, Şirzad köbəri, Küdürüstü köbəri (Ağdam rayonu);

Küdri coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Ləmbəran küdrisi,

Kaha coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Ağzı yastı kaha, Səfi kahası (Şuşa rayonu).

Xarabalıq sözü əsasında əmələ gələn mikrotoponimlər (mikooykonimlər): Məsələn: Gavurqala şəhər xarabalığı (Ağdam rayonu); Üzərliktəpə yaşayış yeri xarabalığı (Xocalı rayonu) və s.

Qəbiristan sözü əsasında əmələ gələn mikrotoponimlər (mikooykonimlər): Ağdamda rast gəlinən qəbiristanlıq adlarına Qaracalı kənd qəbiristanlığı, Papravənd kəndində qəbiristanlıq, və s; Alban qəbiristanlığı, Qaratəpə qəbiristanlığı (Xocavənd rayonu); Mirzə Həsən qəbiristanlığı (Şuşa rayonu); Köhnə qəbiristanlıq (Xocalı rayonu); Qarıtəpə qəbiristanlığı (Xocavənd rayonu) və s. aid etmək olar.

Bağ sözü əsasında əmələ gələn mikrotoponimlər (mikrooykonimlər). Məsələn: Yadın bağı, Teymurun bağı və s. (Ağdam rayonu); Zərli bağı, Zoğallı bağ (Xocalı rayonu); Heyvalı bağ, Çəkilli bağ (Füzuli rayonu); Paşa bağı, Şəkər bağı (Xocavənd rayonu) və s.

Tirə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Pirəbulaq tirəsi (Ağdam rayonu)

Tap coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Güllü tap, Şahin tapı, Zərnigar tapı, Saqqız tapı. (Ağdam rayonu); Nahid tapı, Pirəhməd tapı, Babalı tapı, Kemraquç tapı (Xocavənd rayonu);

Aşırım coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Gözətçi aşırımı, Gədik aşırımı (Ağdam rayonu); Güllücə aşırımı, Köçbək aşırımı (Xocavənd rayonu); Bəzirgan aşırımı, Keçəldağ aşırımı (Şuşa rayonu); Bəzirgan aşırımı (Xocalı rayonu) və s.

Məhəllə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikrooykonimlər). Məsələn: Zülfülər məhləsi, Çuxur məhlə (Ağdam rayonu); Özbək oğlu Əlirza məhləsi (Bərdə rayonu); Hamaarası məhəlləsi, Yuxarı məhəllə (Şuşa rayonu); Saqqızlı məhəlləsi, Çala məhlə (Füzuli rayonu); Ağanın məhəlləsi, Fazilin məhləsi (Xocalı rayonu) və s.

Küçə sözü əsasında əmələ gələn mikrotoponimlər: Köhnə Qızıl Əsgər küçəsi, İslam Hacıyev küçəsi, Üzeyir Hacıbəyov küçəsi, Budyonnu küçəsi, Ə. Haqverdiyev küçəsi; (Ağdam rayonu).

Dəhnə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Sarıdəhnə (Ağdam rayonu);

Keçid coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Sultanbəy keçidi (Ağdam rayonu); Orta keçid (Xocavənd rayonu); və s.

Daş coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Çala daş (Şuşa rayonu); Çəpdaş, Dikdaş, Böyük daş, Duzlaşmış daş, Uzun daş (Xocalı rayonu). Məsələn: Xaçdaş, Dəlikdaş.

Yurd coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikrooykonimlər). Məsələn: Mərzili yurdu, Sırxarın yurdu və s. (Ağdam rayonu); Yar-Yurdu (Xocavənd rayonu); Mehti bəy yurdu, Baş yurd, və s. (Tərtər rayonu); Seyidlər yurdu, Xan yurdu (Füzuli rayonu); Seyidin yurdu, Türk yurdları (Xocalı rayonu) və s.

Kurqan sözü əsasında əmələ gələn mikrotoponimlər (mikrooykonimlər). Sultanbud kurqanı, Əjdaha kurqanı təpələri (Ağdam rayonu); Xaçbulaq kurqanları, Kurqanlar (Xocalı rayonu); Qarabulaq kurqanları (Füzuli rayonu); Qəbiristanlıqtəpə kurqanı (Ağcabədi rayonu); Toxmaxtəpə kurqanı, Dəmirçilər kurqanları (Tərtər rayonu) və s.

Yoxuş coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Narlı yoxuş, Daşlı yoxuş (Ağdam rayonu); Şahyeri yoxuşu (Xocavənd rayonu); Sarıyoxuş (Şuşa rayonu); Daşlı yoxuş, Pirəhmədli yoxuşu, Sarıyoxuş (Füzuli rayonu) və s.

Ağız coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Məsələn: Şalvar dərə ağzı (Ağdam rayonu)

Döş coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Ağbulaq döşü (Xocavənd rayonu); Enli döş (Şuşa rayonu);

Qışlaq coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooykonimlər): Məsələn: Kəbirli qışlağı, Alıqulu qışlağı (Ağdam rayonu); Xəlfəli qışlağı, İmirli qışlağı (Şuşa rayonu); Yuxarı qışlaq (Xocavənd rayonu) və s.

Bazı coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Məsələn: Boz bazı, Gödək bazı (Ağdam rayonu).

Yol coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikrooykonimlər): Kiş yolu, Qiyaslı yolu (Ağdam rayonu); Qatırçı yolu (Şuşa rayonu); Araba yolu, Yastı yol (Füzuli rayonu); Elçi yolu, Elat yolu (Ağcabədi rayonu); Ninki yolu, Şah yolu (Xocavənd rayonu); Falçı yolu, Qala yolu (Xocalı rayonu) və s.

Çuxur coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Məsələn: Çuxuryal, Qalib çuxuru (Xocavənd rayonu); Öküz çuxuru, Saqqızlı çuxur (Ağdam rayonu) və s.

Bostan sözü əsasında əmələ gələn mikrotoponimlər: Məsələn: Yemişan bostanı, Bostan yeri (Xocavənd rayonu);

Cığır sözü əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Ağ cığır (Ağdam rayonu)

Qala sözü əsasında əmələ gələn mikrotoponimlər: Çanaqqala, Xanın qalası, Narın qala, (Ağdam rayonu); Xanın qalası, Şahın qalası (Xocalı rayonu); Məlikcan qalası (Xocavənd rayonu); Qız qala (Füzuli rayonu) və s.

Oyuq coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər). Balaca oyuqlu (Xocavənd rayonu);

Qoruq sözü əsasında əmələ gələn mikrotoponimlər (mikooykonimlər): Kollu qoruq (Ağdam rayonu); Ağgöl qoruğu (Ağcabədi rayonu) və s.

Kalafa coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Şükür qazan kalafa (Ağdam rayonu); Ayı talası, Canavar talası, Göytala (Şuşa rayonu);

Yataq coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Ferma yatağı (Ağdam rayonu)

Quyu coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Əhəng quyusu (Ağdam rayonu);

Kövşən coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Bağbanların kövşəni (Ağdam rayonu). Kövşən taxıl əkilən ərazi, zəmi, yer mənasında işlənir.

Yarğan coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Məsələn: Darısqal yarğan, Qız yıxılan yarğan (Ağdam rayonu); Kəhrad yarğanı (Şuşa rayonu) və s.

Tala coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Məsələn: Güllü tala, (Ağdam rayonu); Cəmilli tala, Qoşabulaq talası (Füzuli rayonu); Göytala, Göllü tala (Şuşa rayonu); Orta tala, Palıdlı tala (Xocalı rayonu) və s.

Sahə sözü əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Məsələn: Mütəllimin sahəsi, Çay zavodunun sahəsi (Xocalı rayonu); Fağırın sahəsi, Mərzili sahələri, (Ağdam rayonu); Örənsahə (Füzuli və Xocavənd rayonları) və s.

Silsilə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Qarqar silsiləsi (Xocalı rayonu); Qarabağ silsiləsi, Palatökən dağ silsiləsi, Sağsağan dağ silsiləsi (Xocavənd rayonu) və s.

Ərazi sözü əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər): Əvəlikli ərazi (Xocalı rayonu)

Yüksəklik coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər (mikooronimlər) : Ağdaş yüksəkliyi, Siçanlı yüksəkliyi (Xocalı rayonu); Düzağa yüksəkliyi, Pirağ bulaq yüksəkliyi (Xocavənd rayonu) və s.

Körpü sözü əsasında əmələ gələn mikrotoponimlər (mikrooykonimlər): Sultan körpüsü (Ağdam rayonu); Kərəm körpüsü (Füzuli rayonu); Ciji qızı körpüsü (Ağcabədi rayonu); Ağa körpüsü, Şükürün körpüsü (Xocalı rayonu); Tağlı körpü, Şah Abbas körpüsü (Füzuli rayonu) və s.

Arxac coğrafi termini əsasında **əmələ gələn mikrotoponimlər (mikooronimlər):** Arxac yeri (Ağdam rayonu).

Nəticə: Qarabağ bölgəsinə aid olan geomorfoloji terminlərin mikrotoponimlərin yaranması prosesində rolu mühümdür. Mikrotoponimlər təbii və süni yolla yarana bilir. Təbii yolla yaranan mikrotoponimlər (fizionim) və süni yolla yaranan mikrotoponimlər (antropogen) mikrotoponimik leksikanın yaranmasına şərait yaradır. Qarabağ bölgəsinin mikrotoponimik tədqiqata cəlb edilməsi sübut edir ki, ərazinin coğrafi nomenləri fizionim və antropogen xüsusiyyətləri daşıyaraq mikrotoponimlər mənzərəsini əmələ gətirir.

Ədəbiyyat siyahısı

1. Ayşe Çağlıyan. Harput çevresinde yer isimlerine coğrafi bakış. Geçmişten geleceğe Harpurt sempozyumu. 23-25 mayıs. 2013, s. 1073-1092.
2. Bayramov A. Azərbaycan onomastikası. 2015, AM965 MMC-nin mətbəəsi, 319 s.
3. Bəndəliyev V. Paleolandşaftların və arxaik terminlərin mikrotoponimlərdə əks olunma xüsusiyyətləri. Elmi əsərlər, №3, 2018, s 215-217.
4. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları. Bakı, 2017, s 332.
5. Əliyev V. Azərbaycan toponimiyası, Bakı, 1999, 278 s.
6. Həbibli R, Azərbaycan tətbiqi onomastikası, Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2021, 330 s.
7. Халыгов Ф. Топонимия районов Мильско-Карабахской равнины (на основе материалов Агдамского, Агдажабединского и Бардинского районов). Диссертация на соискание уч едой степени кандидата филологических наук. Баку, 1984. С 56.
8. Hüseynov İ. Ordubad və Culfa rayonları toponimlərinin və mikrotoponimlərinin linqvistik tədqiqi. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2005, 156 s.
9. İbrahim Altunışık. Coğrafi bakımdan Batman ili yer adları. Ankara, 2009, Yüksük lisans tezi, 154 s.
10. Məmmədov N. Toponimika. Bakı, Bakı Universiteti, 2007, 408 s.
11. Nuriyev E. Azərbaycan SSR Şəki- Zaqatala zonasının toponimiyası. Bakı, elm, 1989, 112 s.
12. S.Sadıqova. Dilçiliyin nəzəri problemləri. Bakı, Elm, 2010, 228 s.

13. Saliha Koday, Taner Aydın. Elmalıda (Antalya) geçmişten günümüzü yerleşme adları üzerine bir inceleme. Uluslararası coğrafiya sempozyumu. 13-14 ekim, 2016, Ankara, s 448-468.
14. Yüzbaşov R. Azərbaycan coğrafiya terminləri. Bakı, AzSSR EA, 1966, 155 s.

Ayshen Ismayilli

The role of geomorphology terms relatıng to the karabakh regıon ın the process of formatıon of mıcrotoponyms: naturally and artıfıcıally formed mıcrotoponyms

Summary

Microtoponyms are a valuable source reflecting the past memory of the people, their language characteristics, and their settlements. Micro-names recorded in the Karabakh region create the microtoponym system of the region and cause changes in the microtoponymic layer. The article examines geomorphological terms that act as an integral part of the microtoponyms of the Karabakh region. Geomorphological terms actively participate in the creation of toponyms. These terms can be related to the geomorphological structure, that is, the relief (home, roof, building, valley, hill, etc.); the direction of location (lower, upper, edge, steppe, plateau, wintering ground, etc.); hydronymic terms (spring, pond, river, etc.). Microtoponyms arise as a result of the combination of anthroponyms, ethnonyms, phytonyms, zoonyms, words denoting art, profession, occupation, theonyms, patronymics, ecclesionyms, oronyms with various geomorphological terms. This means that one actively participates in the formation of the other. That is, geomorphological terms are of particular importance in the formation of microtoponyms. However, of course, there are also differences between them. While microtoponyms indicate the name of the territory, terms express scientific concepts. A large number of terms have been recorded in the microtoponymic system, which are mostly related to the natural environment and arose as a result of people naming various geographical objects.

Keywords: *Karabakh, region, geomorphological, term, toponym, microtoponym.*

Айшен Исмаиллы

Роль геоморфологических терминов, относящихся к карабахскому региону, в процессе формирования микротопонимов: естественные и искусственно образованные микротопонимы

Резюме

Микротопонимы являются ценным источником, отражающим память народа о прошлом, его языковые особенности и места расселения. Микроназвания, зафиксированные в Карабахском регионе, формируют систему микротопонимов региона и обусловливают изменения в микротопонимическом слое. В статье рассматриваются геоморфологические термины, являющиеся неотъемлемой частью микротопонимов Карабахского региона. Геоморфологические термины активно участвуют в создании топонимов. Эти термины могут быть связаны с геоморфологической структурой, то есть рельефом (дом, крыша, здание, долина, холм и т. д.); направлением местоположения (нижний, верхний, опушка, степь, плато, зимовье и т. д.); гидронимическими терминами (родник, пруд, река и т. д.). Микротопонимы возникают в результате сочетания антропонимов, этнонимов, фитонимов, зоонимов, слов, обозначающих искусство, профессию, род занятий, теонимов, патронимов, экклезионимов, оронимов с различными геоморфологическими терминами. Это означает, что одно активно участвует в формировании другого. То есть геоморфологические термины играют особую роль в образовании микротопонимов. Однако, конечно, между ними есть и различия. В то время как микротопонимы обозначают название территории, термины выражают научные понятия. В системе микротопонимов зафиксировано большое

количество терминов, которые в основном связаны с природной средой и возникли в результате наименования человеком различных географических объектов.

Ключевые слова: *Карабах, регион, геоморфологический, термин, топоним, микротопоним.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***dosent E.İsmayılov***
dosent T.Baxşıyeva